# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/23** **13 avqust 2020-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının yaranmasının 25 illik yubileyi münasibəti ilə auditorların fəaliyyətini əks etdirən “müxbir yazısı”nın seçimi üzrə Müsabiqə Komissiyasının yaradılması barədə**

Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev tərəfindən 1994-cü il 16 sentyabr tarixində imzalanmış “Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq 1996-cı il 5 aprel tarixindən fəaliyyətə başlamış Azərbaycan Respublikası Auditorlar Palatasının yaranmasının 25 illik yubileyi münasibətilə auditorların fəaliyyətini əks etdirən “müxbir yazısı” müsabiqəsinin keçirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illiyi münasibətilə auditorların fəaliyyətini əks etdirən “müxbir yazısı” barədə daxil olmuş materialların seçimi üzrə Auditorlar Palatasında aşağıdakı tərkibdə Müsabiqə Komissiyası yaradılsın:

***Komissiyanın sədri:***

Qəşəm Bayramov - Auditorlar Palatası Aparatının rəhbəri

***Komissiyanın üzvləri:***

Fəqan Qarayev - Auditorlar Palatası sədrinin müşaviri;

Vasif Cavadov - Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi;
Məhluqə Hüseynova - İctimaiyyətlə əlaqə və informasiya şöbəsinin müdiri;
Altay Cəfərov - sərbəst auditor, Palata Şurasının üzvü;
Namiq Abbaslı - “ANR Audit” MMC-nin direktor-auditoru;
Palatanın Şurası yanında Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitənin sədri.

2. Müsabiqə Komissiyasına tapşırılsın ki, auditorların fəaliyyətini əks etdirən “müxbir yazısı”nın seçimi ilə əlaqədar zəruri işlər həyata keçirilsin və təqdim edilmiş materiallar araşdırılsın, müvafiq təhlil aparılsın və I, II, III yerlər üzrə qaliblər müəyyən edilərək mükafatlandırılmasına dair təkliflərini təqdim etsinlər.

3. Bu sərəncamın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**